# Nəsimi Bağları Kompleksində "Nəsimi dastanı" baletinin təqdimatı olub



**Sentyabrın 24-də Şamaxıdakı Nəsimi Bağları Kompleksində davam edən 3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalında bədii proqram və "Nəsimi dastanı" baletinin yeni quruluşda təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Nəsiminin Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında xüsusi rol oynadığını bildirib. O vurğulayıb ki, şairin yaradıcılığı həm dilimizin zənginləşməsinə, həm də xalqımızın mənəvi dəyərlərinin formalaşmasına böyük təsir göstərib.














Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazov Nəsimi festivalının Şamaxının mədəni həyatında xüsusi əhəmiyyətə malik olduğunu deyib. O qeyd edib ki, festival Nəsimi irsinin qorunub saxlanılması və şairin yaradıcılığının müxtəlif incəsənət növlərində təqdim edilməsində mühüm rol oynayır.

Balet artisti, teatr rejissoru və prodüseri Andris Liepa bildirib ki, "Nəsimi dastanı" baleti Nəsiminin yaradıcılığının mənəvi və estetik dəyərlərini tamaşaçılara çatdırmaq məqsədilə xüsusi hazırlanıb. O vurğulayıb ki, baletin yeni quruluşunda xoreoqrafiya və musiqi həlli şairin ideyalarını müasir incəsənət dili ilə ifadə etməyə imkan yaradır.

Səhnədə Rüfət Xəlilzadənin bədii rəhbərliyi ilə F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı "Sufi" rəqsini təqdim edib.

Daha sonra Əməkdar artist Sevda Ələkbərzadə "Mərhaba, xoş gəldin" deyib.

Tanınmış müğənni Çingiz Mustafayev isə "Qafil, oyan" ifasını səsləndirib.

Xalq artistləri Alim Qasımov, Natiq Şirinov və "Natiq" ritm qrupu, tanınmış müğənni AISEL, Əməkdar artist Elnur Mikayılov (kamança), Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellasının təqdimatında isə "Dönməzəm" dinlənilib.

Festivalda səbirsizliklə gözlənilən təqdimatlardan biri də "Nəsimi dastanı" baletinin yeni quruluşda nümayişi olub.

Dahi bəstəkar Fikrət Əmirovun ölməz əsərinin yeni quruluşu tanınmış balet artisti, teatr rejissoru və prodüseri Andris Liepanın rejissorluğu ilə səhnələşdirilib. Balet Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin müşayiəti ilə balet truppasının ifasında nümayiş olunub. Baletin quruluşçu xoreoqrafı müxtəlif ölkələrdə fərqli truppalarla işləmiş Patrik De Banadır.

Xatırladaq ki, Fikrət Əmirovun Nəsimiyə həsr etdiyi "Nəsimi dastanı" 1973-cü ildə yazılıb. Librettonun müəllifi yazıçı Anardır. Balet ilk dəfə 1973-cü il sentyabrın 23-də nümayiş olunub. Bu əsər tamaşaçıların böyük rəğbətini qazanıb və premyeradan bir qədər sonra, 1974-cü ildə Respublika Dövlət Mükafatına layiq görülüb.

Qeyd edək ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ICESCO-nun tərəfdaşlığı ilə keçirilən Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı Şərqin dahi şair və mütəfəkkirlərindən biri olmuş İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr edilərək şeir və incəsənətin yaşadılması məqsədi daşıyır. Böyük şairin şeirləri yalnız möhtəşəm söz ustalığı nümunələri deyil, onlar bu gün də öz məna qüvvəsi ilə aktuallığını qoruyub saxlayır.

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.7.